# RÜBLÜK İCMAL






"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə
çatdırılması üçün yeni "Rüblük İcmal" layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz:
https://dp.edu.az/az/content/47

İCMAL

YENİ TƏYİNATLAR

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

DÖVLƏT PROQRAMI MƏZUNLARININ İŞTIRAKI ILƏ KEÇİRİLƏN TƏDBİRLƏR

MÜKAFATLAR

# Yeni təyinat

## KAMAL CƏFƏROV



"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2014-2016-cı illərdə magistratura təhsil səviyyəsi üzrə Avstriyanın "The International Anti-Corruption Academy" ali təhsil müəssisəsindən məzun olmuş Kamal Cəfərov Avropa Şurası Parlament Assambleyasının İnsan hüquqları altkomitəsinin sədr müavini vəzifəsinə təyin olunmuşdur.

Yeni fəaliyyətində K.Cəfərova uğurlar arzu edirik.

## FƏRRUX SƏDİROV

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2014-2020-ci illərdə rezidentura təhsil səviyyəsi üzrə Türkiyənin "İstanbul Üniversitesinin" ali təhsil müəssisəsindən məzun olmuş Fərrux Sədirov İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nəzdində "B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə Komissiya"nın sədri vəzifəsinə təyin olunmuşdur.



Yeni fəaliyyətində F.Sədirova uğurlar arzu edirik.

# Yeni təyinat



## CEYHUN AŞUROV

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2011-2012-ci illərdə magistratura təhsil səviyyəsi üzrə Almaniyanın "Hochschule Bremen" ali təhsil müəssisəsindən məzun olmuş Ceyhun Aşurov Azərbaycan-Braziliya Ciu-Citsu Federasiyasında Təşkilati məsələlər üzrə şöbənin rəhbəri vəzifəsinə təyin olunmuşdur.
Yeni fəaliyyətində C.Aşurova uğurlar arzu edirik.

## ŞAHİN İSMAYILBƏYLİ

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2014-2016-cı illərdə magistratura təhsil səviyyəsi üzrə Niderland Krallığının "Maastricht School of Management" ali təhsil müəssisəsindən məzun olmuş Şahin İsmayılbəyli Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (SOCAR) Korporativ İdarəetmə Mərkəzinin direktor müavini vəzifəsinə təyin olunmuşdur.
Yeni fəaliyyətində Ş.İsmayılbəyliyə uğurlar arzu edirik.



# Yeni təyinat



## TURAN QAFARLI

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2014-2017-ci illərdə bakalavriat təhsil səviyyəsi üzrə Böyük Britaniyanın "University of Queen Mary" ali təhsil müəssisəsindən məzun olmuş Turan Qafarlı Türk Dövlətləri Təşkilatında baş katibin müşaviri vəzifəsinə təyin edilmişdir.
Yeni fəaliyyətində T.Qafarlıya uğurlar arzu edirik.

## SAMİRƏ HƏSƏNZADƏ



"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2015-2016-cı illərdə magistratura təhsil səviyyəsi üzrə Böyük Britaniyanın "University of Glasgow" ali təhsil müəssisəsindən məzun olmuş Samirə Həsənzadə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-metodiki və İxtisasartıma Mərkəzinin direktor müavini vəzifəsinə təyin olunmuşdur.
Yeni fəaliyyətində S.Həsənzadəyə uğurlar arzu edirik.

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# “Şəhid övladlarına bayram sevinci yaşat!” layihəsi həyata keçirilib





**"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" (DP) və “Hökumətlərarası Təqaüd Proqramları”nın (HTP) məzunları, eyni zamanda Təhsil Nazirliyinin əməkdaşlarının könüllü xeyriyyə dəstəyi ilə “Şəhid övladlarına bayram sevinci yaşat!” layihəsi həyata keçirilib.**

Layihənin həyata keçirilməsində 31 nəfər DP və HTP məzunu, eləcə də nazirliyin 26 əməkdaşı yaxından iştirak edib.

Layihə çərçivəsində Salyan, Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran və Astara rayonları üzrə məktəbdə təhsil alan ümumilikdə 60 nəfər şəhid övladı üçün qarşıdan gələn Novruz bayramı münasibətilə təhsil yönümlü bir sıra hədiyyələr alınıb və 20 nəfər DP və HTP məzunu, eləcə də nazirliyin əməkdaşlarının iştirakı ilə onlara təqdim edilib.

Layihədə iştirak edən hər kəsə təşəkkür edirik!

# Məzunların nailiyyətləri



## Hüseyn Abdulla

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2015-2016-cı illərdə ABŞ-ın “University of California- Berkeley” ali təhsil müəssisəsində “Sənaye mühəndisliyi və əməliyyatlar tədqiqi” ixtisası üzrə magistratura təhsili almış Hüseyn Abdulla Texas A&M Universiteti Məzunları Assosasiyasının "Tədqiqatda fərqlənməyə görə" (2022 Association of Former Students Distinguished Graduate Student Award) mükafatına layiq görülüb. H.Abdullanı bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.

## Rəhim Rəhimov

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2012-2014-cü illərdə Fransanın “University Paris 11 – Universite Paris Sud” ali təhsil müəssisəsində “İnformasiya texnologiyaları” ixtisası üzrə magistratura təhsili almış Rəhim Rəhimov SOCAR Türkiyə şirkətinə qatdığı dəyər və göstərdiyi üstün xidmətlərə görə “SOCAR Türkiye 2021 ExCom” mükafatına layiq görülmüşdür. R.Rəhimovu bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.



# Məzunların nailiyyətləri



## Cavid Cabbarzade

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2009-2014-cü illərdə Türkiyənin “Hacettepe Üniversitesi” ali təhsil müəssisəsində “Qulaq, burun, boğaz və baş-boyun cərrahiyyəsi” ixtisası üzrə rezidentura təhsili almış Cavid Cabbarzadənin Rinoplastika ilə bağlı təklif etdiyi algoritma Amerikanın “Aesthetic Plastic Surgery” jurnalında çap olunmaq üçün qəbul edilib. C.Cabbarzadəni bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.

## Vəli Hüseyn

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2010-2012-ci illərdə Amerika Birləşmiş Ştatlarının “Boston University” ali təhsil müəssisəsində “Təhsilin siyasəti, planlaşdırılması və idarəedilməsi” ixtisası üzrə magistratura təhsili almış Vəli Hüseyn Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA) idarə heyətinin üzvü seçilib.

V.Hüseyni bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.



# Məzunların nailiyyətləri



## Səmayə Məmmədova

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2012-2013-cü illərdə Böyük Britaniyanın “University of Newcastle” ali təhsil müəssisəsində “Mətbuat və ictimaiyyətlə əlaqələr” ixtisası üzrə magistratura təhsili almış Səmayə Məmmədovanın jurnalistikadan bəhs edən “Peşəkarlığın Rəsmi” adlı kitabı işıq üzü görüb.

S.Məmmədovanı bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.

## Xatirə Hüseynəliyeva

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2014-2015-ci illərdə İtaliyanın “Scuola Politecnica di Design SPD” ali təhsil müəssisəsində “Sənaye dizaynı” ixtisası üzrə magistratura təhsili almış Xatirə Hüseynəliyevanın əsasən loqotiplər, nişanlar, emblemlər və dizayna aid digər vacib məsələlərdən bəhs edən “Loqo dünyası” adlı kitabı işıq üzü görüb.
X.Hüseynəliyevanı bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.



# Məzunların nailiyyətləri



## Pərviz Hacıyev

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2010-2015-ci illərdə Türkiyənin “Ankara Üniversitesi” ali təhsil müəssisəsində “Urologiya” ixtisası üzrə rezidentura təhsili almış Pərviz Hacıyev Avropa Uşaq Urologiyası Cəmiyyətinin Təhsil Komitəsinə üzv seçilib.

P.Hacıyevi bu münasİbətlə təbrik edir və gələcək İşlərində ona uğurlar arzu edirİk.

## Kamranbəy Qasımov

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2014-2019-cu illərdə Türkiyənin “İstanbul Üniversitesi” ali təhsil müəssisəsində “Urologiya” ixtisası üzrə rezidentura təhsili almış Kamranbəy Qasımov Avropa Uşaq Urologiyası Assosiasiyasının keçirdiyi board imtahanında birinci yer tutaraq “Fellow of the European Academy of Paediatric Urology” (FEAPU) ünvanına layiq görülüb. K.Qasımovu bu münasibətlə təbrik edir və gələcək İşlərində ona uğurlar arzu edirik.



# Məzunların nailiyyətləri




## Elvin Hüseynov

Almaniyanın Köln şəhərində Azərbaycanlı Həkimlərin I Forumunda Köln "Augustireninnen" Xəstəxanasının ağciyər xəstəlikləri, allerqologiya, süni tənəffüs və yuxu təbabəti klinikasının şöbə müdiri və aparıcı mütəxəssisi Elvin Hüseynov kliniki təqdimatla çıxış edib. Elvin Hüseynov Almaniya tibb tarixində ilk dəfə allergik bronxopulmonal kandidiaz xəstəliyinin dəqiq diaqnozunu qoyan həkim kimi tarixə düşüb. Onun bu xəstəlikdə tətbiq etdiyi effektiv "off-label" müalicə dünya elmi ədəbiyyatında bir ilk olmuşdur.


UNIVERSITY OF OXFORD | Saïd Business School

THIS IS TO CERTIFY THAT

Gunay Kazimzade

HAS COMPLETED

Oxford Artificial Intelligence Programme

6 October 2021 - 23 November 2021

Issued on: 24 January 2022

DEVELOPED BY SAID BUSINESS SCHOOL
UNIVERSITY OF OXFORD

CAROLINE WILLIAMS
DIRECTOR OF OPEN PROGRAMMES

ELEANOR MURRAY
ASSOCIATE DEAN OF EXECUTIVE EDUCATION

## Gunay Kazımzadə

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2012-2014-cü illərdə Almaniyanın “Rheinische Friedrich-Wilhelms-Universität Bonn” ali təhsil müəssisəsində “Kompüter elmləri” ixtisası üzrə Magistratura təhsili almış Günay Kazımzadə "Oxford University" ali təhsil müəssisəsinin "Oxford Artificial İntelligence Programme" kursunu uğurla başa vuraraq sertifikata layiq görülüb. G. Kazımzadəni bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.

# “Study UK Alumni Awards” finalisti seçilən DP məzunları



Müjdat Həsənov



Musa Əfəndiyev

"2007-2015 Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyada təhsil almış 4 nəfər Dövlət Proqramı məzunu “British Council” tərəfindən 2021-2022-ci il üzrə keçirilən “Study UK Alumni Awards” müsabiqəsində iştirak edərək gördükləri işlər və cəmiyyətin inkişafında verdikləri töhfələrə görə müsabiqənin üç fərqli kateqoriyası üzrə finalist seçiliblər. Finalist seçilmiş Dövlət Proqramı məzunlarını bu münasibətlə təbrik edirik.



Rauf Cabbarov



Rövşən Əlizadə




# *"Parlaq Gələcəyim"*
# *layihəsi həyata keçirilməyə başlayıb.*

**"Parlaq Gələcəyim" layihəsi çərçivəsində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" məzununun şəhər/rayon məktəbliləri ilə onlayn görüşü keçirilir. Layihənin məqsədi regionlardakı məktəblilərin maraq göstərdiyi ixtisas sahələri üzrə ən son yeniliklər barədə məlumatlandırılması, ölkəmiz üçün insan kapitalı kimi formalaşmağa təşviq edilməsi, əmək bazarındakı prioritet ixtisaslar barədə yeniliklərin bölüşülməsini təmin etməkdir.**







# Bir qrup DP və HTP məzununun iştirakı ilə İftar təşkil olunub

**Aprelin 30-da Təhsil Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Şöbəsinin təşəbbüsü ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil almış bir qrup məzunun iştirakı ilə İftar təşkil olunub. Ramazan ayında İftar süfrəsi ətrafında bizimlə birlikdə toplaşan bütün DP və HTP məzunlarına öz təşəkkürümüzü bildiririk.**

**Görüş zamanı həmçinin müxtəlif ixtisas istiqamətləri üzrə xaricdə təhsil almış və ixtisaslaşmış məzunlar ölkənin və cəmiyyətin inkişafına dair töhfə verəbiləcəkləri bir sıra istiqamətlər və müxtəlif mövzular üzrə fikir mübadiləsi aparıblar.**

**Qeyd edək ki, DP və HTP çərçivəsində xaricdə təhsil almış məzunlar arasında bu və ya digər formada şəbəkələşmə görüşləri mütəmadi olaraq keçirilməkdədir.**




# “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

YANVAR-APREL 2022

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*

**Ziyadxan Xankişizadə**
**(ziyadxan.xankisizada@edu.gov.az)**

**Şəms Səfərəliyeva**
**(shams.safaraliyeva@edu.gov.az)**